**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN**

**9 dekabr 2022-ci il tarixli**

**QƏRARI**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 31.01.2021-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Xarici ölkələrdə verilmiş elmi dərəcələr haqqında sənədlərin nostrifikasiyası və ya təkrar attestasiya əsasında tanınması üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim edilən sənədlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda yeni 7-1-ci və 7-2-ci bəndlər əlavə edilsin:

"7-1. İddiaçının xarici ölkədə doktoranturaya qəbul olduğunu təsdiq edən sənədin surəti və onun notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

7-2. İddiaçının xarici ölkədə doktorantura təhsili müddətində verdiyi imtahanların nəticəsini özündə əks etdirən sənədin (olduğu təqdirdə) surəti və onun notariat qaydasında təsdiq edilmiş tərcüməsi;";

2. 11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"11. Dissertasiyanın orijinal versiyasının, o cümlədən elmlər doktoru elmi dərəcəsi iddiaçısı üçün fəlsəfə doktoru dissertasiyasının cildlənmiş nüsxəsi, avtoreferatın (olduğu təqdirdə) surəti – hər birindən 1 nüsxə (o cümlədən elektron daşıyıcıda);".